# Qarabağ yeni tərəqqi və inkişafa doğru



***Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən sonra Qarabağ turizmin inkişafı baxımından yeni inkişafa və tərəqqiyə doğru inamla irəliləyir. Hazırda işğaldan azad olan ərazilərdə görülən əzəmətli işlər də sübut edir ki, bu dilbər güşə dünyanın ən gözəl diyarlarından birinə çevriləcək. Bu mənada möhtərəm Prezidentimiz həm ölkəmizdə, həm də xaricdə Qarabağın inkişaf perspektivlərindən, həyata keçirilən tədbirlərdən söhbət açarkən, həmin regionun dünyanın dostluq, həmrəylik, turizm məkanı olacağına hər kəsdə əminlik yaranır. Bütövlükdə, işğaldan azad edilmiş torpaqlarımızda gedən proseslər və aparılan quruculuq işləri Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanı gələcəkdə dünyanın mədəniyyət mərkəzlərindən birinə çevirəcək.***

Xatırladaq ki, tarixi şəhərimiz olan Şuşa sovet vaxtında da İttifaq səviyyəsində ənənəvi olaraq mədəniyyət və incəsənət festivallarının keçirildiyi şəhər olub. Şuşanın mövcud olduğu 270 il ərzində bu şəhər Qafqazın ədəbi-mədəni mərkəzlərindən olub. Hazırda burada aparılan yenidənqurma, tikinti-bərpa işləri də təsdiqləyir ki, Şuşa mütləq öz tarixi şöhrətinə qayıdacaq. Prezident İlham Əliyev Şuşaya səfəri zamanı dedi ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Dünya birliyi də şahid oldu ki, güllələnmiş büstlər erməni vandalizminin növbəti əməlləridir. Möhtərəm Prezidentimiz qeyd etdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq və qoyuldu da.

Ümumiyyətlə, Qarabağın işğaldan azad olunması Azərbaycanın və bölgə ölkələrinin gələcək rifahı üçün yeni perspiktivlər yaratmaqla bərabər, həm də türk dünyası, Avrasiya coğrafiyasında yerləşən bütün ölkələr üçün də yeni reallıqlar yaradıb. Qeyd etdiyim kimi, bölgənin "şah damarı" olacaq və hazırda inşası sürətlə aparılan Zəngəzur dəhlizi isə ən əlverişli və unikal nəqliyyat loqistik layihə kimi bütün ölkələrə böyük iqtisadi dividend gətirəcək. Zəngəzur dəhlizinin açılmasının xüsusi əhəmiyyətini Prezident İlham Əliyev hələ 13 il bundan əvvəl, 2009-cu il oktyabrın 13-də Naxçıvanda keçirilmiş Zirvə görüşündə açıqlamışdı. O, bildirmişdi ki, vaxtilə Zəngəzurun Azərbaycandan alınıb Ermənistana verilməsi türk dünyasının coğrafi parçalanması demək idi. Çünki qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən körpü rolunu oynayırdı. Buradan keçəcək nəqliyyat, kommunikasiya və infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcəkdir.

Zəngəzur dəhlizinin açılması regional və beynəlxalq yükdaşımalarda əsas halqa statusunu qazanacaq. Dövlət başçımız bu dəhlizin açılması ilə bağlı istər müharibənin gedişi zamanı, istərsə də ondan sonra Azərbaycanın bu sahədə istənilən əməkdaşlıqda maraqlı və hazır olduğunu dəfələrlə bəyan edib. Möhtərəm Prezidentimiz Azərbaycanın, Ermənistan istisna olmaqla, bütün region dövlətləri ilə ikitərəfli və çoxtərəfli platformalarda uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Ermənistan da sülh müqaviləsini imzaladıqdan sonra bu platformalarda təmsil oluna bilər.

Baxmayaraq ki, işğaldan azad olmuş ərazilərdə bərpa-quruculuq işləri hələ tamamlanmayıb, ölkəmizə gələn yüksək ranqlı xarici qonaqlar keçirdikləri görüşlərdə Azərbaycana, xüsusilə Qarabağa olan diqqət və maraqlarını ifadə edirlər. Qardaş Türkiyə, İtaliya, İngiltərə, Rusiya, İsrail kimi ölkələr Qarabağın geosiyasi, iqtisadi əhəmiyyətini qiymətləndirərək, ilk gündən böyük layihələrlə bu gözəl məkana öz töhfələrini verirlər. Ümumiyyətlə, həm Zəngəzur dəhlizi, həm də, bölgədə yaradılmış 3+3 platforası bölgə xalqları arasında dostluğun, qonşuluğun və həmrəylin möhkəmləndirilməsində, eləcə də, bölgənin dayanıqlı sülhün, sabitliyin təhlükəsizliyin, əmin-amanlığın və inkişafın qarantı olacaqdır.

Möhtərəm Prezidentimizin uzaqgörən siyasətinin nəticəsidir ki, bölgəmizin sülhün, barışın, sabitliyin və dayanıqlı inkişafın mərkəzinə çevrilməsi üçün bu platformanın "şah damarı" olacaq Zəngəzur dəhlizinin ən yaxın zamanlarda istifadəyə verilməsi üçün bütün imkan və resurslar səfərbər olunub. Qısa müddət keçməsinə baxmayaraq, artıq 3+3 platforması Avropa strukturlarının, ABŞ, hətta Asiya ölkələrinin də diqqətini cəlb edib. Möhtərəm Prezidentimizin İran İslam Respublikasının yol və şəhərsalma nazirini qəbul edərkən, səsləndirdiyi fikirlər də bunu təsdiqləyir. Təkcə onu qeyd etmək kifayətdir ki, tarixən Azərbaycan xalqına qarşı düşmən mövqedə olan, zaman-zaman əcdadlarımızın məskəni olmuş tarixi torpaqlarımızı işğal etməyə nail olan təcavüzkar Ermənistanda hazırda Zəngəzur dəhlizinin Ermənistan ərazisindəki hissəsində də işlər görülür.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***